Turnirə 19 nəfərlik heyətlə qatılan “Vətən” bir həftə ərzində Rusiyanın müxtəlif şəhərlərini, o cümlədən Stavropol, Mahaçqala və Rostovu təmsil edən rəqiblərlə qarşılaşıb.

Turnirin ilk turunda inamlı oyun nümayiş etdirən idmançılarımız qrup mərhələsini asanlıqla keçib. Yarımfinal mərhələsində “Vətən” “UOR Stavropol” komandasına penaltilər seriyasında qalib gələrək finala vəsiqəni təmin edib. Finalda “DUSŞ Stavropol” komandasına məğlub olan futbolçularımız turniri gümüş medalla başa vurub.

Komanda fərdi nailiyyətlərinə görə də mükafatlandırılıb. Məşqçi-müəllim Ramiz Əliyev "turnirin ən yaxşı məşqçisi", komanda üzvü Sultan Mustafayev “turnirin ən yaxşı yarımmüdafiəçisi” adına layiq görülüblər. Turnirin təşkilatçıları tərəfindən komandaya xatirə hədiyyələri, idman geyimi və toplar təqdim olunub.